# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№276/1** **26 may 2016-cı il**

**Auditorlar Palatasının 20 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Auditorlar Palatasının kollektivinə və üzvlərinə ünvanladığı 2016-cı il 4 aprel tarixli təbrik məktubundan irəli gələn vəzifələrin icrasına dair tədbirlər planı barədə**

Auditorlar Palatasının 20 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Auditorlar Palatasının kollektivinə və üzvlərinə ünvanladığı 2016-cı il 4 aprel tarixli təbrik məktubundan irəli gələn vəzifələrin icrasına dair hazırlanmış tədbirlər planını müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 20 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Auditorlar Palatasının kollektivinə və üzvlərinə ünvanlandığı 2016-cı il 4 aprel tarixli təbrik məktubundan irəli gələn vəzifələrin icrasına dair “Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur);
2. Məsul icraçılara tapşırılsın ki, tədbirlər planında nəzərdə tutulan işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər;
3. Bu qərarın və tədbirlər planının mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**